**Xarici ölkələrdə fəaliyyət göstərən qida obyektlərinin təsdiqi ilə bağlı tələb olunan sənədlər**

Xarici qida obyektinin təsdiqi üçün xarici qida subyekti (onun Azərbaycan Respublikasında səlahiyyətli nümayəndəsi), onun filialları və nümayəndəlikləri ərizə ilə müraciət edərək, aşağıdakı sənədləri elektron kabinet vasitəsilə və ya kağız daşıyıcılarda Agentliyə təqdim etməlidir (sənədlər xarici dildə tərtib olunduqda onların Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi əlavə edilməlidir):

1. ərizə qida subyektinin səlahiyyətli nümayəndəsi tərəfindən verildikdə – nümayəndənin səlahiyyətlərini təsdiq edən sənəd və şəxsiyyətini təsdiq edən sənədin surəti;

2. qida obyektinin fəaliyyət göstərdiyi ölkənin səlahiyyətli qurumu tərəfindən təsdiq olunduğunu (və ya ona bərabər tutulan qeydiyyat, uçot və s. barədə rəsmi məlumat) əks etdirən sənədin surəti;

3. qida subyektinin Azərbaycan Respublikasındakı filialları və nümayəndəlikləri tərəfindən müraciət edildikdə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2.1–18.2.3-cü maddələrində nəzərdə tutulan sənədlər;

4. qida obyektinin tikinti layihəsi, obyektin infrastrukturu və yerləşdiyi ərazi, obyektdə istifadə edilən qida ilə təmasda olan dəzgah və avadanlıqlar, obyektdə istehsal edilən məhsulların çeşidləri, adları, tərkibi, istehsal metodlarının təsviri, müəssisənin istehsal gücü, zərərvericilərə nəzarət, tullantıların idarə edilməsi, Təhlükənin Analizi və Kritik Nəzarət Nöqtələrinə (HACCP-a) əsaslanan qida təhlükəsizliyinə daxili nəzarət sistemi, obyektdə tətbiq olunan qida təhlükəsizliyini idarəetmə proseslərinə dair məlumatları əks etdirən arayış;

5. fəaliyyəti heyvan mənşəli qida məhsulları ilə bağlı olan obyektlərin təsdiqi üçün xarici ölkənin epizootik vəziyyətinə dair Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının məlumatını əks etdirən, həmin ölkənin səlahiyyətli qurumu tərəfindən verilən sənəd;

6. fəaliyyəti heyvan mənşəli məhsullarla bağlı olan obyektlərin təsdiqi üçün həmin ölkənin səlahiyyətli qurumu tərəfindən təsdiq edilmiş qalıqların izlənilməsinə dair milli monitorinq planı.